**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# ORFOEPİYA VƏ ORFOQRAFİYA TƏLİMİNİN ELMİ ƏSASLARI

**seçmə fənni üzrə**

**P R O Q R A M**

**(Magistratura səviyyəsi üçün )**

*ADPU-nun Tədris Metodiki Şurasının*
*04 dekabr 2021-ci il tarixli iclasının*
*qərarına əsasən çap edilir ( pr№ 1)*

**Bakı-2021**

Tərtib edənlər: pedaqogika üzrə fəlsəfə doktoru, dos. Həmzə Əliyev
pedaqogika üzrə fəlsəfə doktoru, dos. Pəri Paşayeva

Elmi redaktor: pedaqogika üzrə fəlsəfə doktoru, dos. Sevda Abbasova

Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim Adil Balıyev

pedaqogika üzrə fəlsəfə doktoru, dos. Asif Hacıyev

İzahat vərəqi

Dil insanlar arasında ən böyük ünsiyyət vasitəsidir. İnsanlar ünsiyyət vasitəsilə öz fikirlərini ifadə edir, qarşılarındakı insanları başa düşmək, anlamaqla müxtəlif xarakterli əlaqələr qururlar. Düzgün ünsiyyət qurmaqla əməkdaşlığa nail olmaq və məqsədə daha tez çatmaq mümkündür. Hər hansı bir situasiyanı anlamaq, öyrənmək, analiz - sintez etmək üçün ünsiyyət çox mühümdür.

Gözəl və təsirli nitq digər peşə sahiblərindən daha çox müəllimə lazımdır ki, çünki müəllim şagirdə bilik verməklə yanaşı eyni zamanda onlar üçün bir nümunə olmalıdır. Təlim prosesində müəllimin nitqinin təsiri altında onlarda müəyyən hisslər, psixi proseslər baş qaldırır ki, bunların da əsasında şagird şəxsiyyəti, gələcək insanın xarakteri formalaşır.

İnsanlar arasında ünsiyyət o zaman baş verir ki, onlar həmin sözləri və ifadələri danışdığı dildə düzgün tələffüz edə bilirlər, çünki bəzən sözün ifadənin düzgün tələffüz olunmaması üzündən fikir anlaşılmaz qalır və ya məna təhrif olunur. Sözlərin düzgün tələffüzü fikrin ifadə vasitələrindən daha çox məzmuna yönəldilməsini təmin etməklə nitqin asan anlaşılmasına və qavanılmasına səbəb olur.

Müasir dövrümüzdə ünsiyyət informasiya mübadiləsi funksiyasını yerinə yetirir. Buna görə də, informasiya mübadiləsi ünsiyyətin əsas cəhətlərindən biri kimi qəbul edilir. Eyni zamanda ünsiyyət insanlar arasında səmərəli qarşılıqlı münasibətlərin yaranmasına da xidmət edir. Bu baxımdan gərgin münaqişələrin həlli, dövlətlərarası məsələlər, diplomatik münasibətlər də danışıqlar yolu ilə həll olunur.

Düzgün tələffüz qaydalarının mənimsədilməsinin əsası ibtidai siniflərdən qoyulur, sonrakı siniflərdə daha da təkmilləşdirilir. Ədəbi tələffüz vərdişlərinin formalaşdırılması dedikdə, buraya yalnız orfoepik normalara əməl edilməsi nəzərdə tutulmur. Ədəbi tələffüz üzrə işlər daha geniş məzmuna malikdir. Bura həm orfoepik normalar, həm intonasiya, diksiya, melodika, fasilə, ritmik bölgü, vurğu üzrə işlər, nitqin surəti və tonu üzrə işlər, eyni zamanda söz, qrammatik forma və sintaktik quruluşların dildə işlənən sabit və vahid tələffüz qaydaları da daxildir.

Yazılı nitqin düzgünlüyü, orfoqrafik qaydaların gözlənilməsi savadlılığın bariz nümunəsidir. Yazılı nitq informasiyaları müəyyən məsafədən ötürməyə imkan verməklə yanaşı, onu mühafizə edib saxlamağa, gələcək nəslə çatdırmağa imkan verir. Mütəxəssislər yazılı nitqi şifahi monoloji nitqə nisbətən daha müfəssəl nitq hesab edirlər. Yazılı nitqi şifahi nitqdən fərqləndirən cəhətlərdən biri ondan ibarətdir ki, yazılı nitqin köməyi ilə insanlar öz fikir və istəklərini müəyyən məsafədən bir-birlərinə çatdıra bilirlər.

Şagirdlərin orfoepik və orfoqrafik qaydalara yiyələnməsi, onları ədəbi dil normalarının, orfoqrafik və orfoepik dil normalarının mahiyyətini dərk etməyə hazırlayır ki, bu da nitq bacarıqlarının inkişafı baxımından böyük əhəmiyyət kəsb edir.

Proqram materiallarının mənimsənilməsi magistrantların gələcək iş həyatlarında uğur qazanmaları üçün mühüm əhəmiyyət kəsb edir. "Orfoepiya və orfoqrafiya təlimiminin elmi əsasları" fənn proqramı 30 saat mühazirə, 30 saatlıq seminar kursunu əhatə edir.

**KOMPETENSİYALAR:**

Ümumi və ixtisas fənnin öyrənilməsi nəticəsində tələbə **bilməlidir:**

-cəmiyyətin ümumi qanunauyğunluqlarını, hüquqi bilikləri, demokratiyanın əsas prinsiplərini, beynəlxalq prosesləri;

-müasir Azərbaycan ədəbi dilinin orfoqrafik, orfoepik, fonetik, leksik, qrammatik, semantik normalarını;
-İKT-dən istifadəni, özünüinkişafını, peşəkarlığını artırmağı.
Ümumi və ixtisas fənnin öyrənilməsi nəticəsində tələbə **bacarmalıdır:**
-cəmiyyətdə baş verən prosesləri təhlil etməyi;
-müasir Azərbaycan ədəbi dilində düzgün danışmağı və yazmağı.
-fikrini düzgün və yığcam ifadə etməyi;
Ümumi və ixtisas fənnin öyrənilməsi nəticəsində tələbə **yiyələnməlidir:**
-müasir Azərbaycan ədəbi dilinin fonetik, orfoqrafik, orfoepik, leksik, qrammatik, semantik normalarına;
-müasir Azərbaycan ədəbi dilinin fonetik, orfoqrafik, orfoepik, leksik, qrammatik, semantik normalarını mənimsəməklə düzgün danışmaq və yazmaq bacarığına.

**İxtisas peşə hazırlığı fənni nəticəsində tələbə:**

- Orfoqrafiya təliminin məqsəd və vəzifələrini, tarixini öyrənir.
- Orfoqrafiya təliminin prinsiplərini, yuxarı siniflərdə orfoqrafiya üzrə aparılan işlərin məzmununu şərh edir.
- Kurikulumda orfoqrafiya təlimi üzrə aparılacaq işin məzmununa dair zəruri bilikləri mənimsəyir.
- Orfoqrafiyanı fonetika ilə inteqrativ tədris etməyi bacarır.
- Şagirdlərin yazı vərdişlərinin təkmilləşdirilməsi ilə bağlı orfoqrafiyanın morfologiya ilə inteqrativ tədrisi yollarını müəyyənləşdirir.
- Orfoqrafiya təlimində istifadə edilən iş növləri və vasitələri müəyyənləşdirir.
- Müxtəlif xarakterli imlaların aparılması metodikasını bilir və tətbiq edir.
- Esse, hekayə yazmağı bacarır.
- Orfoepiya və orfoqrafiya təlimində fəal təlim üsullarından və İKT-dən istifadə etməyi bacarır və tətbiq edir.
- Orfoepiya təliminin əhəmiyyəti, məqsəd və vəzifələrini öyrənir.
- Kurikulumda orfoepiya təlimi məsələlərini təhlil və tətbiq etməyi bacarır.
- Orfoepiya təliminin tarixini və ümumi məsələlərini şərh edir.
- Orfoepik qaydalar, onların tətbiqi prinsiplərini öyrənir və təhlil edir.
- Ədəbi tələffüzlə bağlı şagirdlərə veriləcək bilik və bacarıqların məzmun və həcmini müəyənləşdirir.
- Orfoepiya təlimində fəal təlim metodlarını tətbiq etməyi bacarır.
- Orfoepiyanı orfoqrafiya ilə inteqrativ tədris etməyi bacarır.
- Morfologiyanın tədrisində orfoepik bilik, bacarıq və vərdişlərin formalaşdırılmasını öyrənir.
- Sintaksisin tədrisində orfoepik bilik, bacarıq və vərdişlərin yaradılması və tətbiqi metodikasına yiyələnir və yerində tətbiq edir.
- İctimai həyatda, əmək fəaliyyəti prosesində yüksək səviyyədə şifahi və yazılı ünsiyyət qurmağı bacarır.

**Fənnin hədəfi:** Tələbələrə orfoepiya və orfoqrafiya təliminin özünəməxsus xüsusiyyətlərinin, tarixinin, fənnin inkişaf qanunauyğunluqlarının, prinsiplərinin, əsas tələblərinin, "Orfoepiya və orfoqrafiya təliminin metodik əsasları" fənninin məqsəd və vəzifələrinin, metodlarının Azərbaycan dili dərslərində inteqrativ tədrisinin, oxu təlimi, yazı təlimi metodikasının fəal/interaktiv təlimlə sistemli şəkildə öyrədilməsi üzrə işin məzmununun verilməsi.

“Orfoepiya və orfoqrafiya təliminin metodik əsasları” fənninin əsas vəzifəsi gələcək mütəxəssislərə orfoqrafiya və orfoepiya təlimində yeni təlim texnologiyalarından istifadə qaydalarını, dərslərin səmərəli təşkili yollarını öyrətmək və onları praktik cəhətdən həyata keçirmək bacarıqlarını aşılamaqdır.

**Fənnin məqsədi** orfoepiya və orfoqrafiya təliminin məqsəd və vəzifələri, tarixi, orfoepiya və orfoqrafiya təliminin prinsipləri, V-XI siniflərdə məzmun xətləri üzrə orfoepik-orfoqrafik işlərin təcrübi və metodiki təşkili və tətbiqi yollarının öyrədilməsidir.

Fənnin məqsədinə daxildir:

-Orfoepiya və orfoqrafiyanın tədrisi metodikası üzrə bilik, bacarıq və vərdişlərin formalaşdırılması;
-Azərbaycan dili kurikulumunun (V-XI sinif) səciyyəvi xüsusiyyətlərinin təhlili;
-Azərbaycan dilində şifahi və yazılı nitq bacarıqlarının inkişaf etdirilməsi;
-Orfoepiya və orfoqrafiyanın tədrisində istifadə edilən iş növlərinin təhlili;
-Orfoepiya və orfoqrafiyanın inteqrativ tədrisi;
-Fəal təlim metodlarının nəzəri və praktik əhəmiyyətinin şərhi;
-Orfoepiya və orfoqrafiiyanın tədrisinin fəal/interaktiv təlimlə öyrədilməsi;
-Orfoepiya və orqrafiyanın tədrisində İKT-nin sistemli şəkildə tətbiq olunması;

**Fənn üzrə təlim nəticələri:** Tələbə:

1. Orfoepiya və orfoqrafiya təliminin metodik əsaslarını, aktual problemlər üzrə bilikləri mənimsəyir;
2. Orfoepiya və orfoqrafiyanın qarşılıqlı əlaqəsini, onların inteqrativ tədrisinin əhəmiyyətini izah edir, nümunələr göstərməklə fikrini əsaslandırır;
3. Orfoepiya və orfoqrafiya qaydalarının təlim və tətbiq prinsiplərini şərh edir, bu sahədə aparılan işlərin məzmununu izah edir;
4. Orfoepiya və orfoqrafiya təliminin xarakterik xüsusiyyətlərini təhlil edir, müqayisə əsasında əqli nəticə çıxarır;
5. Orfoepik və orfoqrafik bilikləri ümumiləşdirir, inteqrasiya edir, digər bölmələrlə əlaqələndirməklə fikrini əsaslandırır;
6. Fənn üzrə təlim nailiyyətlərini qiymətləndirmək üçün standartlara uyğun meyarlar seçir və yekun nəticə əldə edir.

**Proqramın təlim nəticələri ilə fənnin təlim nəticələri arasında əlaqə:** proqramda Orfoepiya və orfoqrafiyanın tədrisi metodikası fənninin məqsəd və vəzifələri, təlim prinsipləri, V-XI siniflərdə məzmun xətləri üzrə Azərbaycan dilinin tədrisinin məzmunu verilir. Fonetika, orfoepiya, orfoqrafiya, lüğət işi, morfologiya, sintaksis, rabitəli nitq inkişafının inteqrativ tədrisi, tədrisdə istifadə edilən iş növləri-fəal təlim üsulları və İKT-dən istifadənin sistemli şəkildə tətbiq olunması üzrə işin məzmunu açıqlanır. Fənnin təlim nəticələri proqramın təlim nəticələri ilə üzvi şəkildə əlaqələnir.

Proqramda məntiqi ardıcılıqla fənnin tədrisinə ayrılan saatlar mövzular üzrə paylanmış, onların annotasiyası və tövsiyə olunan ədəbiyyat siyahısı təqdim olunmuşdur.

**Qiymətləndirmə metodları (mərhələlər üzrə):** Qiymətləndirmə tələbələrin fənn üzrə gözlənilən təlim nəticələrini səmərəli şəkildə ölçmək üçündür. Bu da əldə olunan nailiyyəti monitorinq etməyə, təhsil proqramının nəticələrinə nə dərəcədə nail olunduğunu qiymətləndirməyə, müəllimin təhsil və öyrənmə metodlarını nə dərəcədə düzgün tətbiq etməsini qiymətləndirməyə və tələbələrlə fikir mübadiləsinin təşkilinə imkan verir.

Qiymətləndirmə üsullarının müntəzəm şəkildə təkmilləşdirilməsi və yenilənməsi ADPU-nun keyfiyyət təminatı sisteminin əsas tərkib hissəsidir.

Tədris prosesində istifadə edilən üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesində fəal rol oynamasını təşviq edir.

Tədris prosesində aşağıdakı qiymətləndirmə üsullarından istifadə edilir:

- yazılı tapşırıqlar;
- sorğular;
- açıq müzakirələr;
-praktiki məşğələ və laboratoriya məşğələlərində müşahidələrə əsasən tələbələrin bacarıqlarının qiymətləndirilməsi;
- kürs işi,;
- sərbəst (müstəqil) işlərin qiymətləndirilməsi;
- frontal sorğu;
- sifahi və yazılı cavablar;
- qrup şəklində və özünü qiymətləndirmə;
-təqdimatlar, prezentasiyalar, testlər,
-qrup işinin qiymətləndirilməsi,
-özünüqiymətləndirmə.

**Fənnin tədrisində istifadə olunacaq təlim və öyrənmə metodları:** Tədris və örənmə mühiti elə təşkil edilmişdir ki, tələbələr "Orfoepiya və orfoqrafiya təliminin elmi əsasları" fənni üzrə nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilir və təkmilləşdirilir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi Tədris Metodiki Mərkəzin Keyfiyyətə Nəzarət və Qiymətləndirmə bölməsi ilə birgə aparılır və ADPU-nun keyfiyyət təminatı sisteminin əsas tərkib hissəsidir.

Təlim prosesində fərdi tədris metodlarından geniş istifadə edilir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesində fəal rol oynamasını təşviq edir.

Təlim prosesində aşağıdakı tədris və öyrənmə metodlarından istifadə edilir:

- mühazirə, praktik məşğələ və laboratoriya məşğələləri;
- təqdimatlar, müzakirələr və debatlar;
- sərbəst (müstəqil) iş
- problemə əsaslanan tədris;
- qrup qiymətləndirməsi;
- distant təhsil.

**Fənnin təsviri:** "Orfoepiya və orfoqrafiya təliminin elmi əsasları" fənni müasir Azərbaycan ədəbi dilinin düzgün yazı və tələffüz normalarından, qayda-qanunlarından və onların öyrənilməsi texnologiyasından bəhs edir. Orfoqrafiya və orfoepiya təliminin metodikası və bununla bağlı Azərbaycan dili kurikulumunun (V-XI siniflər) səciyyəvi xüsusiyyətləri təhlil edilir. Orfoepiya və orfoqrafiyanın tədrisində fəal təlim texnologiyalarından istifadənin əhəmiyyəti açıqlanır.

## I MÖVZU

## Orfoqrafiya təliminin məqsəd və vəzifələri. Orfoqrafiya qaydalari. Orfoqrafiya təliminin tarixinə dair

Orfoqrafiya təliminin məqsədi və vəzifələri. Orfoqrafiya yazılı ədəbi dilin vahid qaydalar sistemi kimi. Şagirdlərin şəxsiyyət kimi formalaşmalarında orfoqrafik savadlılığın rolu. Yazılı nitqdə fikrin düzgün və dəqiq çatdırılmasında orfoqrafiyanın əhəmiyyəti.

Orfoqrafiya təliminin başlıca didaktik vəzifəsi. Düzgün yazı qaydaları.Sözlərin səs tərkibinin hərflərlə ifadə edilməsi. Sözlərin bitişik,ayrı və defislə yazılışı. Sözlərin sətrdən-sətrə keçirilməsi. Mürəkkəb sozlərin yazılışı. Xüsusi adların baş hərfinin böyük yazılması və ixtisarlarln yazılışı. Orfoqrafiya lüğətləri.

Orfoqrafiya təliminin tarixinə dair. XIX əsrədək mollaxanalarda yazı təliminə yer verilməməsi.

XIX əsrin ortalarında M.F.Axundovun ərəb əlifbasının islah olunması təşəbbüsü. IX əsrdə yeni tipli "Üsuli-cədid" məktəblərinin açılması.

XX əsrin əvvəlində Azərbaycan dilində proqram və dərsliklərin tərtibi məsələləri. Mahmud bəy Mahmudbəyovun "İmlamız" adlı kitabçasının orfoqrafiya təlimində yeri.

XX əsrin 20-ci illərindən Azərbaycan dili tədrisi, o cümlədən orfoqrafiya təlimi sahəsində irəliləyişlər.

## II MÖVZU
## Orfoqrafiya təliminin prinsipləri.

Orfoqrafiyanın prinsipləri. Orfoqrafiyanın tərtib prinsipləri: fonetik prinsip; morfoloji prinsip; tarixi-ənənəvi prinsip;

Orfoqrafiya təliminin prinsipləri.

Orfoqrafiya təliminin elmi əsaslar üzərində qurulması. Orfoqrafiya təlimində qanun kimi əməl edilməli olan iki prinsip: 1) morfemlərin yazılışı ilə tələffüzünün qarşılıqlı mənimsədilməsi prinsipi; 2) morfemlərin yazılışı ilə mənasının əlaqəli mənimsədilməsi prinsipi.

## III MÖVZU
## Orfoqrafiya üzrə aparılacaq işin məzmunu. Yazı məzmun xətti üzrə aparılacaq işlər .

Azərbaycan dili düşünmə, öyrənmə və danışma vasitəsi kimi. Şagirdlərin Azərbaycan dilində şifahi və yazılı dil formalarına yiyələnməklə, nitq mədəniyyətinə qovuşması. Düşünmə və öyrənmə proseslərində əldə olunmuş biliklərin yazılı nitq vasitəsilə reallaşdırılması. Şagirdlərin nitq fəaliyyətinin növləri (dinləyib-anlama, danışma, oxu, yazı) üzrə müvafiq bacarıq və vərdişlərə yiyələnməsi zərurəti.

Yazı məzmun xətti. Azərbaycan dilinin təlimi prosesində yazı məzmun xətti üzrə əsas və alt-standartların reallaşdırılması.

Şagirdlərin, müxtəlif sual və tapşırıqlı imlalar, ifadə, inşa və esselər yazması. Mühakimə xarakterli rəy, esse, inşa yazıların aparılması və yazı vərdişlərinin möhkəmləndirilməsi.

## IV MÖVZU
## Orfoqrafiya təlimində istifadə edilən iş növləri və vasitələr

Orfoqrafiya təlimində istifadə edilən iş növləri: orfoqrafik çalışmalar; fonetik-orfoqrafik çalışmalar; leksik- orfoqrafik çalışmalar; qrammatik-orfoqrafik çalışmalar; orfoqrafık təhlil; orfoqrafiya lüğətinin tərtibi; ifadə; inşa və esselər.

Orfoqrafik qaydaların öyrənilməsinin iki mərhələsi: 1) orfoqrafik qaydaların praktik yolla öyrənilməsi; 2) orfoqrafik vərdişlərin yaradılması üzrə işlər.

Orfoqramı öyrənmək üçün istifadə ediləcək metodları, iş növlərini seçərkən, orfoqramların xarakterinin nəzərə alınması. Yazılış çətinliyi ümumi orfoqrafik qaydalarla müəyyənləşə bilməyən ümumi xarakterli orfoqramların öyrənilməsi.

Əsl Azərbaycan sözlərinin yazı qaydalarının müəyyən qrammatika və ya orfoqrafiya qaydaları ilə izah edilməsi.

Orfoqrafık qaydaların öyrənilməsində orfoqrafik təhlilin əhəmiyyəti. Orfoqrafık təhlildən həm xüsusi, həm də ümumi xarakterli orfoqramların öyrədilməsində istifadə edilməsi. Orfoqrafık qaydanın öyrənilməsində iki mərhələ: 1) qaydanın öyrənilməsi; 2) öyrənilən qaydaların müxtəlif çalışmalarla avtomatlaşdırılması

## V MÖVZU
## İmlalar. İmlaların (öyrədici və yoxlama imla) aparılması metodikası

İmlalar üzrə işin düzgün təşkili. İmlaların öyrədici və yoxlayıcı olmaqla iki qrupa ayrılması.

Öyrədici imlalar: xəbərdarlıqlı, izahlı, kommentarili, görmə, lüğət üzrə, seçmə, yaradıcı, sərbəst imlalar. Xəbərdarlıqlı, izahlı imla, kommentarili yazıların oxşar və fərqli cəhətləri.

Şagirdlərdə yalnız orfoqrafik cəhətdən düzgün yazı vərdişlərini inkişaf etdirən yazılar (üzündənköçürmə yazılar, imlalar, əzbər yazılar); şagirdlərdə orfoqrafik cəhətdən düzgün yazı vərdişlərini və rabitəli nitqi inkişaf etdirən yazılar (seçmə, yaradıcı, sərbəst imlalar, ifadə və inşa.

## VI MÖVZU
## Yoxlama imlanin aparılmasi, ifadə və inşalar

Yoxlama imlanın aparılması metodikası. Bu imlanı aparmaqda məqsəd. Yoxlama imladan kiçik və böyük summativ qiymətləndirmədə istifadə edilməsi.

İfadə və inşaların orfoqrafiya təlimində yeri. İfadə və inşa yazılarda üç cəhətin nəzərə alınması: orfoqrafik savadlılıq (orfoqram və punktoqramların düzgün yazılması), məzmun və üslub. İfadə və inşalar üçün mətnlərin məqsədəuyğun seçilməsi.

## VII MÖVZU
## Yazı işlərinin yoxlanması, səhvlər üzərində işin təshihi və qiymətləndirmə

Orfoqrafik səhvlərin qruplaşdırılması və təshihi. Səhvlərin başvermə səbəblərinin müəyyənləşdirilməsi. Orfoqrafik səhvlərin iki qrupa ayrılması:

1.Düzgün tələffüzün təsiri ilə baş verən səhvlər: hərfburaxma, hərfartırma, hərflərin başqa hərflə əvəzolunması ilə bağlı qüsurlar

2.Qüsurlu tələffüzün- adi danışıq və yerli şivəyə məxsus tələffüzün təsiri ilə baş verən səhvlər.

Səhvlərin aradan qaldirilması ilə bağlı işlərin aparılması.

Şagird yazılarının qiymətləndirilməsi.

## VIII MÖVZU
## Orfoqrafiya təlimində texniki vasitələrdən, fəal təlim üsullarından və İKT-dən istifadə

Orfoqrafiya təlimində texniki vasitələrdən istifadə. Bu məqsədlə proyektorun və kodoproyektorun didaktik imkanlarını müəyyənləşdirmək. Orfoqrafiya təlimində fəal təlim

üsullarından istifadə. Fəal təlim və texnikaların orfoqrafiya təliminə tətbiq edilmə imkanları. Fəal/interaktiv təlim metod və texnikaları: beyin həmləsi (əqli hücum, BİBÖ, auksion, klaster, suallar, anlayışın çıxarılması, söz assosiasiyaları, insert texnikaları); müzakirə metodu (müzakirə, diskussiya, debatlar, müzakirə xəritələri, Sokrat üsulu, akvarium texnikaları); rollu oyunlar (rollu oyun, modelləşdirmə, səhnələşdirmə texnikaları); prezentasiya metodları (təqdimatlar, esse texnikaları); tədqiqatın aparılması metodları (problemin həlli, kublaşdırma, konkret hadisənin araşdırılması, Venn diaqramı, lahiyələrin hazırlanması, sorğu vərəqləri və müsahibələr, qərarlar ağacı, ideyalar xalısı, refleksiya texnikaları); təşkilati metodlar (ziqzaq, karusel texnikaları).

Orfoqrafiyanın tədrisində İKT-dən istifadə edilməsi. İKT-dən istifadə formaları: informasiya axtarışı, təqdimatlar, elektron dərslik və s.

## IX MÖVZU
## Orfoepiya təliminin əhəmiyyəti, məqsəd və vəzifələri.

Orfoepik vərdişlərə yiyələnməyin əhəmiyyəti. Orfoepiya təliminin məqsəd və vəzifələri. Orfoepik qaydalar düzgün tələffüz sistemi kimi. Dildən düzgün istifadəyə dövlət qayğısı.

Orfoepiya təlimi üzrə işin əsas istiqamətləri. Orfoepiya təliminin qarşısında duran vəzifələr. Orfoepik qaydalara yiyələnmənin ardıcıl proses olması. Müəllimin, diktor və aktyorların, natiqlərin ifadəli oxusunun səsləndirilməsi.

Ədəbi tələffüz anlayışı: orfoepik normalar, intonasiya, diksiya, melodika, fasilə, ritmik bölgü, vurğu, nitqin surəti və tonu üzrə işlər.

Ədəbi tələffüz nitq bacarıqlarının inkişafı üzrə aparılan işlərin əsas istiqamətlərindən biri kimi.

Mövcud proqram və dərsliklərdə orfoepiya məsələlərinin qoyuluşu.

.

## X MÖVZU
## Ədəbi tələffüzlə bağlı bilik və bacarıqların məzmunu

Orfoepik qaydalar. Tələffüzün müxtəlif üslubları. Orfoepik qaydalar haqqında: saitlərin tələffüzünə dair qaydalar; samitlərin tələffüzünə dair qaydalar; şəkilçilərin tələffüzünə dair qaydalar; alınma sözlərin, ərəb, fars mənşəli sözlərin tələffüzünə dair qaydalar.

Eyni və müxtəlifcinsli qoşasaitli sözlərin tələffüzü. Sözlərdə bəzi saitlərin uzun və qısa tələffüz olunması. Saitlərin əvəzlənməsi ilə bağlı qaydalar.

Samitlərin tələffüz qaydaları. Eyni və müxtəlifcinsli qoşasamitli sözlərin tələffüzü. Samitlərin karlaşması və cingiltiləşməsi ilə bağlı orfoepik qaydalar. Alınma sözlərdə vurğu.

## XI MÖVZU
## Metodik ədəbiyyatda orfoepiya ilə bağlı məsələlərin təhlili

1920-ci ildən ana dilinin bir fənn kimi tədrisinə yer verilməsi. Azərbaycan dilinin tədrisində qrammatika, orfoqrafiya (orfoepiya), yazılı və şifah nitq inkişafının tövsiyə edilməsi.

Ə.Dəmirçizadənin “Azərbaycan dili orfoepiyasının əsasları” (1969) kitabında ədəbi tələffüz, onun mənbələri, pozulma səbəbləri, fonetik, qrafik və qrammatik şəraitdə təfəffüz məsələlərindən bəhs etməsi.

A.Abdullayevin “Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası” kitabında verilmiş “Orfoepiya təliminin metodikası” adlı bölmənin düzgün tələffüz təliminə istiqamət verməsi.

Prof. Ə.Əfəndizadənin düzgün tələffüz anlayışı ilə bağlı fikirləri.

Prof. N.Abdullayevin “Ədəbi tələffüz təliminin metodikası”, “Orfoqrafiya və orfoepiya təlimi məsələləri” əsərlərində ədəbi tələffüz təliminin əsaslı şəkildə işlənilməsi.

Prof. Y.Kərimovun, H.Balıyevin, A.Rəhimov, V.Qurbanov, N.Cəfərova və b. elmi-metodik əsərlərində ədəbi tələffüz üzrə işlərin aparılması metodikasıı.

## XII MÖVZU
## Azərbaycan dili orfoepiyasının əsas prinsipləri

Azərbaycan dili orfoepiyasının əsas prinsipləri:

Fonetik prinsip, morfoloji prinsip, söz və qrammatik formalarin tələfüzünün dil ahənginə uyğun olması prinsipi, qrafik prinsip və mənbə dilin tələffüz qaydalarına əməl etmək prinsipi.
Ədəbi tələffüz qaydaları müəyyənləşdirilərkən bu prinsiplərə əməl olunması.
Azərbaycan dili orfoepiyası təliminə verilən tələblər.

## XIII MÖVZU
## Orfoepiyanın orfoqrafiya ilə əlaqəli tədrisi

İnteqrasiya anlayışı. Təhsildə inteqrasiyanın əhəmiyyəti.

Orfoepiya və orfoqrafiyanın inteqrasiyası fonetika tədrisinin əsas həlqələrindən biri kimi.

Orfoepiyanın savadlı yazıya xidmət etməsi. Orfoepiya və orfoqrafiyanın inteqrativ tədrisi zamanı səslərinin tələffüzü və yazılışının vəhdətdə öyrənilməsi. Bəzi orfoepik-orfoqrafik qaydaların diqqətdə saxlanılmasının vacibliyi: sait səslərin uzun tələffüzü, qoşa saitli sözlərin yazılışı və tələffüzü; bəzi sözlərin yazılışı və tələffüzündəki fərqlər; sözlərin tərkibində üə, üa və əa qoşa saitləri ilə yazılan sözlərin tələffüzü; ***o*** və qoşa ***o*** saiti ilə yazılan bəzi sözlərin ***[a:]*** kimi tələffüzü; tərkibində eynicinsli qoşa **kk, pp** və **tt** kar samitlərlə yazılan sözlərdə ikinci samitin özünün cingiltili qarşılığı kimi tələffüzü; tərkibində eynicinsli qoşa qq cingiltili samiti olan sözlərdə birinci samitin özünün kar qarşılığı kimi tələffüzü; tərkibində qoşa ***dd, ll, zz, ss, vv, ff, bb, cc, mm, nn, rr*** samitləri ilə yazılan sözlərin yazıldığı kimi tələffüzü; tərkibində qoşa yy samiti olan sözlərin bir ***[y]*** iIə tələffüzü; söz ortasında yanaşı gələn iki müxtəlif cinsli kar samitlə yazılan sözlərin tələffüzündə ikinci samitin cingiltili tələffüzü; söz ortasında ***n*** samitinin ***b, m*** samitlərindən əvvəl gəldikdə ***[m]*** kimi tələffüzü və s.

Orfoepiyanın orfoqrafiya ilə inteqrativ tədrisi zamanı fəal təlim metodlarından və müvafiq ənənəvi təlim üsullarının imkanlarından istifadə edilməsi

## XIV MÖVZU
## Morfologiyanın tədrisində orfoepik vərdişlərin formalaşdırılması

V-XI siniflərdə morfologiyanın tədrisi prosesində orfoepiya üzrə aparılan işlər.Nitq hissələrinin tədrisində ədəbi tələffüz üzrə aparılacaq işlərin əsas istiqamətləri. Yazılışı tələffüzündən fərqlənən sözlərin orfoepiyası üzərində iş,bu istiqamətdə fonetik bilklərin tətbiqi və təkrarı: k səsinin ikili funksiyasının başa salınması; sonu samitlə bitən isimlərə saitin əlavə edilməsi və necə deyilişinin

izahı; tələffüzü və yazılışı arasında fərq olan isimlərin qarşı-qarşıya yazılaraq tutuşdurulması, tələffüzünün aydınlaşdırılması; isimlərin yazılışına əsasən tələffüzünün müəyyənləşdirilməsi. İsimlərin cümlədə dəyişərkən çoxhecalı sözlərin sonundakı q və k samitlərinin tələffüzü və yazılışı arasındakı fərqin öyrənilməsi.

Morfologiyanın tədrisi prosesində bir çox qaydaların fərqli tələffüz edilməsi: feilin gələcək zamanı -acaq, -əcək, -yacaq, -yəcək şəkilçilərini qəbul etdiyi halda, ədəbi tələffüzdə ***-ac, -əc, -yac,*** -yəc şəklində (alacam, gələcəm) kimi; ismin çıxışlıq halı -dan, -dən şəkilçilərini qəbul etdiyi halda, ədəbi tələffüzdə -nan, -nən şəklində (odunnan, çəmənnən) işlənməsi. Sonu q və k samiti ilə bitən sözlərdən sonra saitlə başlanan söz gələrsə, q-nın ğ kimi, k-nın y kimi tələffüz olunması. Sonu ***b, v, d, z, g, c*** samitləri ilə qurtaran sözlərdən sonra samitlə başlanan söz gəldikdə əvvəlki sözün son səsinin karlaşması.

Morfologiyanın tədrisində orfoepik vərdişlərin formalaşdırılması zamanı əyani vəsaitdən, tapşırıqlardan, fəal/interaktiv təlim üsullarından, morfoloji təhlil, ədəbi tələffüz üzrə cədvəllər, orfoepik çalışmalar və İKT-dən istifadə edilməsi.

## XV MÖVZU
## Sintaksisin tədrisində ədəbi tələffüz üzrə aparılan işlər

Ədəbi tələffüz vərdişlərinin formalaşmasında sintaktik biliklərin rolu. Sintaksisin tədrisində ədəbi tələffüz üzrə aparılan işlər.

Sintaktik anlayışların formalaşdırılması. Cümlənin məqsəd və intonasiyaya görə növləri və onların tədrisi ( nəqli intonasiya; sual intonasiyası; nida intonasiyası; əmr intonasiyası). Cümlənin məqsəd və intonasiyaya görə növlərinin tədrisində fəal/interaktiv təlim metodlarından istifadə.

Sintaksisin tədrisində ədəbi tələffüz vərdişlərinin aşılanması. Sintaksisin tədrisində ifadəli oxu və nitq vərdişlərinin inkişaf etdirilməsi. İntonasiya ifadəli oxunun əsas komponentlərindən biri kimi. Ədəbi tələffüz vərdişlərinin mənimsənilməsində Azərbaycan dili dərslərinin rolu.

Sintaksisin tədrisində ədəbi tələffüz üzrə aparılan işlərin şagirdlərin təlimə marağının artmasında, təlim materiallarını daha yaxşı mənimsənilməsində, səmərəli oxu bacarığının yaranmasıda rolu. İnteraktiv təlimdən istifadə etməklə sintaksisin tədrisində ədəbi tələffüz üzrə işlərin səmərəliliyinin artırılması.

Sintaksisin tədrisində ədəbi tələffüz üzrə işlər zamanı informasiya və kommunikasiya texnologiyalarından (İKT-dən) düzgün istifadə. İKT vasitələrinin geniş imkanları ilə təhsilin keyfiyyətinin yüksəldilməsi.

**“Orfoepiyavə orfoepiya təliminin elmi əsasları” (saatlar üzrə bölgü)**

| № | Mövzular | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1 | Orfoqrafiya təliminin məqsəd və vəzifələri. Orfoqrafiya qaydaları.Orfoqrafiya təliminin tarixinə dair | 2 | 2 |
| 2 | Orfoqrafiya təliminin prinsipləri. | 2 | 2 |
| 3 | Orfoqrafiya üzrə aparılacaq işin məzmunu. Yazı məzmun xətti üzrə aparılacaq işlər. | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 4 | Orfoqrafiya təlimində istifadə edilən iş növləri və vasitələri | 2 | 2 | |
| 5 | İmlalar. İmlaların (öyrədici və yoxlama) aparılması metodikası | 2 | 2 | |
| 6 | Yoxlama imlanın aparılmasış. İfadə və inşalar. | 2 | 2 | |
| 7 | Yazı işlərinin yoxlanması,səhvlər üzərində işin təshihi və qitmətləndirmə | 2 | 2 | |
| 8 | Orfoqrafiya təlimində texniki vasitələtdən, fəal təlim üsullarından və İKT-dən istifadə | 2 | 2 | |
| 9 | Orfoepiya təliminin əhəmiyyəti, məqsəd və vəzifələri. | 2 | 2 | |
| 10 | Ədəbi tələffüzlə bağlı bilik və bacarıqların məzmunu | 2 | 2 | |
| 11 | Metodik ədəbiyyatda orfoepiya ilə bağlı məsələlərin təhlili | 2 | 2 | |
| 12 | Azərbaycan dili orfoepiyasının əsas prinsipləri | 2 | 2 | |
| 13 | Orfoepiyanın orfoqrafiya ilə əlaqəli tədrisi | 2 | 2 | |
| 14 | Morfologiyanın tədrisində orfoepik vərdişlərin formalaşdırılması | 2 | 2 | |
| 15 | Sintaksisin tədrisində ədəbi tələffüz üzrə aparılan işlər | 2 | 2 | |
| | Cəmi: | 30 | 30 | 60 |

**İmtahan sualları:**

1. Orfoepiya təliminin məqsəd və vəzifələri
2. Orfoepiya təliminin tarixinə dair xülasə
3. Orfoepiya üzrə bilik və bacarıqların qiymətləndirilməsi
4. Ədəbi tələffüzlə bağlı şagirdlərə veriləcək bilik və bacarıqların həcmi
5. Orfoepiya və intonasiya üzrə işlərin aparılması metodikası
6. Orfoepik çalışmaların təşkili
7. Orfoepiyanın fonetika ilə inteqrativ tədrisi
8. Orfoepik qaydalar, onların tətbiqi prinsipləri
9. Saitərin tələffüzünə aid qaydalar
10. Eyni və müxtəlifcinsli qoşa saitli sözlərin tələffüzü
11. Sözlərdə bəzi saitlərin üzün və qısa tələffüz tələffüz olunması
12. Saitlərin əvəzlənməsi ilə bağlı orfoepik qaydalar
13. Samitərin tələffüzünə aid qaydalar
14. Eyni və müxtəlifcinsli qoşa samitli sözlərin tələffüzü
15. Samitlərin karlaşması və cingiltiləşməsi ilə bağlı orfoepik qaydalar
16. Tələffüzdə vurğunun rolu, alınma sözlərdə vurğu
17. Orfoepiyanın orfoqrafiya ilə əlaqəli tədrisi
18. Orfoepiyanın orfoqrafiya ilə əlaqəli tədrisi
19. Orfoepiyanın morfologiya ilə əlaqəli tədrisi
20. Orfoepik rejim, onun təşkili yolları

21. Orfoepiya təliminin başlıca prinsipləri
22. Orfoepiya təlimində istifadə olunan ənənəvi və fəal təlim üsulları
23. Orfoepik vərdişlərin formalaşdirilməsında informasiya kommunikasiya texnologiyalarından istifadə
24. Orfoepiya təlimində istifadə edilən iş növləri və vasitələr
25. Orfoepiya təlimində fəal təlim üsullarından istifadə
26. Orfoepik biliklərin qiymətləndirilməsinə yeni yanaşma
27. Fonetikanın tədrisində orfoepik vərdişlərin formalaşdırılması
28. Sait və samitlərin tədrisində orfoepiyaya aid qaydaların öyrədilməsi
29. Morfologiyanın tədrisində orfoepik vərdişlərin formalaşdırılması
30. Söz və şəkilçilərin deyilişində dialekt və şivə xarakterli nitq nöqsanlarının islahı
31. Sintaksisin tədrisində ədəbi tələffüz vərdişlərinin aşılanması
32. Sintaksisin tədrisində ifadəli oxu və nitq vərdişlərinin inkişaf etdirilməsi
33. Orfoqrafiya təliminin məqsəd və vəzifələri
34. Orfoqrafiya təliminin tarixinə dair
35. Kurikulum(proqram) və dərsliklərdə orfoqrafiya məsələlərinin qoyuluşu
36. Orfoqrafiya üzrə aparılan işlərin məzmunu
37. Orfoqrafik qaydaların tərtibi prinsipləri
38. Sait və samitlərin yazılışı ilə bağlı orfoqrafik qaydalar
39. Sözlərin yazılış qaydaları
40. Yazılışı və tələffüzü fərqlənən sözlərin orfoqrafiyası
41. Sözlərin sətirdə-sətrə keçirilməsi qaydaları
42. Xüsusi adların və ixtisarların yazılışı
43. Orfoqrafiya və orfoepiyanın qarşılıqlı tədrisi
44. Orfoqrafiyanın fonetika ilə əlaqəli tədrisi
45. Orfoqrafiya və nitq inkişafının əlaqəli tədrisi
46. Orfoqrafiya təliminin prinsipləri
47. Şagirdlərin yazı vərdişlərinin təkmilləşdirilməsi ilə bağlı orfoqrafiya üzrə aparılan işlər
48. Orfoqrafiya təlimində istifadə edilən iş növləri və vasitələr
49. Orfoqrafiya təlimində fəal təlim üsullarından istifadə
50. Orfoqrafik biliklərin qiymətləndirilməsi metodikası
51. Yazı məzmun xətti üzrə V-XI siniflərdə aparılacaq işlərin məzmunu
52. İmla və onun növləri
53. Öyrədici imlaların aparılması metodikası
54. Orfoqrafik çalışmaların növləri
55. Orfoqrafik qüsurların qruplaşdırılması və təshihi
56. Yoxlama imla və onun aparılması
57. Azərbaycan dili orfoqrafiyasının xüsusiyyətləri
58. Xəbərdarlıqlı və izahlı imlanın aparılması
59. Yaradıcı və sərbəst imlanın aparılması
60. İfadə və inşanın aparılması

Ədəbiyyat


1. Abdullayev N.Ə. Orfoepiya və Orfoqrafiya təlimi məsələləri. Bakı: APİ, 1985, 89 s.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ana dili Kurikulumu. (Layihə). "Azərbaycan müəllimi", 18 avqust, 2006-cı il.
3. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum) .. Kurikulum jurnalı, 2008, №1, səh.131-150.
4. Bayramov A., Məhərrəmov Z., İsgəndərzadə M. Azərbaycan dil və nitq mədəniyyəti. Bakı: Ulu, 2015, 236 s.
5. Cəfərova N. Orfoqrafiya və orfoepiya tədrisinin metodik əsasları. İbtiai sinif müəllimliyi ixtisası üzrə bakalavr plləsi üçün proqram. Bakı , 2021. 33 s.
6. İsmayılova M.A. Azərbaycan dili və nitq mədəniyyəti: aktual problemlər. Bakı: ADPU, 2017, 200 s.
7. İmanov M.K. Orfoqrafiya-orfoepiya lüğəti. Bakı: Şərq-Qərb, 2014, 205 s.
8. Heydərov R. Müasir Azərbaycan dilinin orfoepiyasının prinsiplərinin müəyyənləş-dirilməsinə dair. AMEA. Filologiya və sənətşünaslıq. 2019, № 1, S. 176-180.
9. Əmirova C.R., Rzayeva S.H. Azərbaycan dilində bəzi orfoepiya məsələləri. Dil və ədəbiyyat. 2013, № 1(85), S.105-107.